# HEYDƏR ƏLİYEV VƏ RESPUBLİKA KƏND TƏSƏRRÜFATININ AQRAR BÖLMƏSİNDƏ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ

F.B.ƏKBƏROVA

***Azərbaycan Respublikasının təbiəti, torpağı, iqlimi ölkəmizdə bol kənd təsərrüfatı məhsulları istehsal etməyə və aqrar sektoru yüksək səviyyəyə qaldırmağa imkan verir.***

***Heydər Əliyev***

Azərbaycanda kənd təsərrüfatının və aqrar sənayenin tarixi çox qədimdir. Yola saldığımız XX əsrin 70-ci illərindən başlayaraq respublikamız həm aqrar ölkə, həm də sənaye ölkəsi kimi tanınmağa başlamışdır. Lakin 80-ci illərin sonlarından Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatında başlamış tənəzzül 90-cı illərin əvvəllərində daha da dərinləşmişdir. Respublikanın həm müharibə şəraitində olması, həm də iqtisadi böhran onun müstəqilliyi üçün təhlükə yaradır, əhalinin sosial həyat səviyyəsinin getdikcə pisləşməsinə səbəb olurdu.

Ümummilli liderimiz Heydər Əliyev göstərirdi ki, respublikadakı bu iqtisadi və sosial böhran hələ Sovetlər İttifaqı mövcud olduğu dövrdə gedən mənfi proseslərin məntiqi nəticəsi idi.

Məhz Azərbaycanda belə ağır vəziyyətdə xalqımızın təkidi ilə ikinci dəfə respublika rəhbərliyinə gələn Heydər Əliyev, ölkəmizin tənəzzüldə olan iqtisadiyyatını, o cümlədən kənd təsərrüfatını böhrandan çıxarmağa və onun sürətli inkişafını təmin etməyə nail olmuşdur.

XX yüzilliyin sonunda xalqımızın iqtiqlaliyyət mübarizəsinin qanunauyğun yekunu kimi meydana çıxmış Müstəqil Azərbaycan Respublikasının baş memarı H.Ə.Əliyev dəfələrlə söyləmişdi ki, möhkəm iqtisadiyyatı olan dövlət hər şeyə qadirdir.

1993-cü ilin iyunundan başlayaraq ölkədə ictimai-siyasi sabitliyin bərpası, Ermənistanla müharibədə 1994-cü ilin mayında (12-də) atəşkəsin əldə edilməsi və balanslaşdırılmış uğurlu xarici siyasətin nəticəsində, respublika iqtisadiyyatında əsaslı islahatların aparılması üçün müsbət şərait yaratdı.

Beləliklə, Heydər Əliyev tərəfindən hazırlanmış iqtisadi islahatlar kursunun elmi cəhətdən öyrənilməsi vətən tarixşünaslığının qarşısında mühüm əhəmiyyət kəsb edən bir problemə çevrildi.

Heydər Əliyev iki dəfə - 60-cı illərin axırlarında və 90-cı illərin əvvəllərində Azərbaycanın iqtisadiyyatını, onun əsas sahələrindən biri olan kənd təsərrüfatını böhrandan çıxarmış və onun inkişafını təmin edərək yüksək zirvələrə qaldırmışdır.

1969-1982-ci illərdə H.Əliyevin rəhbərliyi altında, kənd təsərrü-

fatının inkişafı sahəsində həyata keçirilən kompleks tədbirlər nəticəsində böyük uğurlar əldə edilmişdir. Hesablamalar göstərir ki, 1982-ci ildə 1969-cü ilə nisbətən taxıl istehsalı 573,9 min tondan 1211, 3 min tona, pambıq istehsalı 299,4 min tondan 558,4 min tona (ayrı-ayrı illərdə daha yüksək olmuşdur), tütün istehsalı 24,5 min tondan 57 min tona, kartof istehsalı 112,9 min tondan 184,2 min tona, tərəvəz istehsalı 372 min tondan 916,7 min tona, bostan məhsulları istehsalı 48,3 min tondan 93 min tona, üzüm istehsalı 272 min tondan 1815,6 min tona, meyvə və giləmeyvə istehsalı 522 min tondan 345 min tona, çay yarpağı istehsalı 9,4 min tondan 26,7 min tona, ət istehsalı (kəsilmiş çəkidə) 93,2 min tondan 151,3 min tona, süd istehsalı 425,4 min tondan 870,7 min tona, barama istehsalı 3,6 min tondan 5,3 min tona çatdırılmışdı. Bu illərdə iribuynuzlu mal-qaranın baş sayı 1671,4 min başdan 1851,6 min başa, qoyun və keçilərin baş sayı 4708,3 min başdan 5471,2 min başa qədər artmışdı.

Lakin XX yüzilliyin 80-ci illərinin ikinci yarısından başlayaraq respublikanın iqtisadiyyatında geriləmə, tənəzzül özün göstərməyə başladı. 90-cı illərin əvvəllərində Azərbaycanın iqtisadiyyatında, o cümlədən aqrar bölmədə 1969-1982-ci illərdə əldə edilmiş nailiyyətlərdən, respublikanın böyük kənd təsərrüfatı potensialından əsər-əlamət qalmamışdı. Az bir müddətdə 150 min hektardan çox bar verən üzüm bağları məhv edilmişdi.

1995-ci ildə 1991-ci ilə nisbətən taxıl istahsalı 443 min ton və ya 32,5 faiz azalaraq 921,4 min tona, pambıq istehsalı 265,6 min ton (49,2 faiz) azalaraq 274,1 min tona, tütün istehsalı 45,6 min ton (79,4 faiz) azalaraq 11,7 min tona, kartof isthesalı 24,4 min ton (13,6 faiz) azalaraq 155,5 min tona, tərəvəz istehsalı 381,2 min ton (47,4 faiz) azaralaq 424,1 min tona, üzüm istehsalı 816,9 min ton (72,6 faiz) azalaraq 308,7 min tona düşmüş, iribuynuzlu mal-qaranın baş sayı 144,5 min baş (8 faiz) azalaraq 1681,7 min baş, qoyun-keçinin baş sayı 647,9 min baş (12,2 faiz) azalaraq 4644,4 min başa enmişdir. Göründüyü kimi, kənd təsərrüfatının bütün sahələrində məhsul istehsalı kəskin şəkildə azalmışdı.

Belə bir çətin şəraitdə yenə də ölkə iqtisadiyyatının əsas sahələrindən biri olan kənd təsərrüfatını düşmüş olduğu ağır böhrandan Heydər Əliyev çıxartdı. Heydər Əliyev ilk növbədə kənd təsərrüfatını böhrandan çıxarmaq üçün dövlət siyasətini müəyyən etdi. Kənd təsərrüfatının aqrar bölməsində islahatların aparılması Heydər Əliyevin daha çox diqqət yetirdiyi sahə olmuşdur. Heydər Əliyevin təşəbbüsü ilə təkcə 1994-cü ildə kənd təsərrüfatı problemlərinin həllinə, aqrar sahədə islahatlara dair səkkiz müşavirə və dekabrın 9-10-da Azərbaycan Respublikasının Ali Sovetində Türkiyə, Çin, İsrail, İran, Rusiya və başqa ölkələrin nümayəndə heyətlərinin iştirakı ilə «Aqrar islahatları: Problemlər və onların həlli yolları» mövzusunda beynəlxalq konfrans keçirilmişdi. Konfransda Heydər Əliyev çıxış edərək respublikamızın kənd təsərrüfatında yaranmış ağır vəziyyətin səbəblərini açıqlamış və qeyd etmişdir ki, «1980-ci illərdə, xüsusən 80-ci illərin ikinci yarısında və 1990-cı ildə aparılan təbliğat Azərbaycanın kənd təsərrüfatını belə acınacaqlı vəziyyətə salıb». Ulu öndər daha sonra bildirmişdir ki, biz köhnəlmiş prinsiplər, köhnə sistem əsasında daha nailiyyət qazana bilmərik. Ona görə də aqrar bölmədə islahatların aparılması vacib

şərtdir.

Məhz respublika iqtisadiyyatının, o cümlədən aqrar bölmənin tərəqqisini təmin etmək üçün iqtisadi istlahatların aparılması üzrə dövlət siyasətini, onun əsas prinsiplərini müəyyən etmişdi.

Həmçinin Heydər Əliyev 1994-cü il noyabrın 25-də respublikanın kənd təsərrüfatında aparılan islahatların vəziyyətinə həsr olunmuş müşavirədə islahatların hüquqi təminatının olmasının vacibliyini qeyd edərək demişdir: «iqtisadi islahatların keçirilməsi üçün xüsusi bir qanunun qəbul olunması zəruridir. Bu, aqrar bölmədə islahatların keçirilməsinə, şübhəsiz ki, şərait yaradar».

Aqrar islahatların həyata keçirilməsinin ilkin addımları Naxçıvan Muxtar Respublikasında atılıb. Hələ H.Əliyev Naxçıvan MR-nın Ali Məclisinin sədri işləyərkən 1992-ci ilin aprel ayında Muxtar Respublikanın Ali Məclisinin sessiyasında aqrar islahatlara dair qərarlar qəbul olunmuşdur.

Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü ilin sentyabrın 13-də Bakı şəhərində «Sahibkarlığın strategiyası və iqtisadiyyatının yenidən qurulması» mövzusunda beynəlxalq konfrans çağırıldı.

Xarici şirkətlərin, bankların, ABŞ, Böyük Britaniya, Macarıstan və Türkiyənin işgüzar dairələrinin nümayəndələrinin, xarici dövlətlərin Bakıdakı nümayəndələrinin başçılarının iştirak etdikləri konfransda məqsəd bazar iqtisadiyyatının qurulmasında dünya təcrübəsindən, bazara keçid şəraitində Azərbaycanın bu təcrübəni tətbiq etməsinin mümkünlüyünü müzakirə etmək idi.

1994-cü il 23 dekabrda kənd təsərrüfatında iqtisadi islahatlara həsr olunmuş konfransda çıxış edən Heydər Əliyev bildirdi ki: «... aqrar bölmədə iqtisadi islahatlar aramaq, mülkiyyət formasını dəyişmək, torpaq islahatı keçirmək, sərbəst iqtisadiyyata geniş yol açmaq respublikamızın həyatında çox mühüm və əhəmiyyətli, eyni zamanda son dərəcə məsuliyyətli və taleyüklü məsələdir».

Respublikada aqrar islahatların hüququ bazasını yaratmaq məqsədilə dəfələrlə müsabiqə keçirilmişdir. Nəhayət, bütün bunlardan sonra 1994-cü ilin 25 dekabrında Heydər Əliyevin sərəncamı ilə aqrar islahata dair qanun layihəsini hazırlamaq məqsədilə xüsusi komissiya formalaşmışdır. «Aqrar islahatların əsasları haqqında» qəbul edilmiş qanun aqrar sənaye kompleksini, islahatların əsas istiqamətlərini və onların hüquqi təminatını müəyyən etmişdir. «Sovxoz və kolxozların islahatı haqqında» AR-ın qəbul etdiyi qanun isə əmək məsələlərini və əmlakın özəlləşdirilməsi, kənd təsərrüfatında müxtəlif növlü müəssisələrin yaradılması haqqında hər hansı təşkilati-hüquqi formasının könüllü seçilməsinə və yaradılmasına təminat verir.

Heydər Əliyev 1996-cı il 2 apreldə «Aqrar bölmədə islahatlar strateji yolumuzdur» mövzusunda keçirilən müşavirədə demişdir: «.. Aqrar sahədə islahatlar aparmaq üçün biz iki çox mühüm qanuq qəbul etmişdik. Bu qanunların həyata keçirilməsinə başlanılıb».

«Torpaq islahatları haqqında» qanun 16 iyun 1996-cı ildə təsdiq edildi. Aqrar islahatlara dair qanunvericilik aktlarının qəbul edilməsi ilə dövlətin torpaq üzərində mövcud olan müstəsna mülkiyyət hüququ ləğv edildi və torpaq üzərində yeni mülkiyyət formalarının əsası qoyuldu.

Aqrar islahatlara dair qanunların icrasını təmin etmək məqsədilə 19-dan çox fərman, əsasnamə, sərəncam və başqa normativ aktlar qəbul

edilmişdir. Həmçinin bunlarla yanaşı, «Azərbaycan Respublikasında aqrar islahatın dövlət proqramı» və «Aqrar islahatın həyata keçirilməsi üzrə tədbirlər proqramı» hazırlanmışdır.

Respublikanın ümumi torpaq fondunun 44,7 faizinin dövlət mülkiyyətində saxlanılması, 33,2 faizinin bələdiyyə mülkiyyətinə ayrılması, qalan 22, 7 faizinin isə xüsusi mülkiyyətə verilməsi planlaşdırılmışdı.

Ölkədə aparılan əsaslı iqtisadi islahatların müsbət nəticələri getdikcə daha çox hiss olunur. Həmçinin aqrar bölmənin işində də böyük canlanma hiss olunur. İndi aqrar sahə özünün həlledici inkişaf mərhələsinə qədəm qoyub. Son illər aparılan islahatlar nəticəsində aqrar bölmədə qazanılmış uğurlar, eyni zamanda mövcud potensial dövlətin bu sahədə siyasətinin həyata keçirilməsini inkişaf etdirmək və əhalinin rifah halını yaxşılaşdırmaqla, bu bölmənin idarə edilməsinin müasir tələblərə uyğun yenidən qurulmasını tələb edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi haqqında» 23 oktyabr 2004-cü il tarixli, «Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında» 23 oktyabr 2004-cü il tarixli sərəncamlar imzalamışdır.

Eyni zamanda «Torpaq icazəsi haqqında», «Torpaq bazarı haqqında» qanunların qəbul edilməsi ilə ölkədə torpaq bazarının tam hüquqi təminatı yaranmışdır. Daha sonra Nazirlər Kabineti «Torpaq bazarı ilə bağlı bəzi məsələlər haqqında» 1999-cu il 19 oktyabr tarixli qərar qəbul etmişdir. Əlavə olaraq, «Torpaq məcəlləsi»nin, «Torpaq bazarı haqqında» qanunların tələblərinə müvafiq olaraq torpaq bazarının daha da inkişaf etdirilməsi məqsədilə müvafiq qaydalar hazırlanaraq Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Torpaqların alqı-satqı, icazə, istifadə, vərəsəlik, girov və s. əqdlərin qeydiyyatı, torpaq mülkiyyətçiləri və istifadəçiləri haqqında qanunvericilikdə nəzərdə tutulmuş məlumatların toplanması, hüququ sənədlərin hazırlanması və torpaqla bağlı digər işlərdə torpaq mülkiyyətçilərinə xidmət göstərmək məqsədilə Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Torpaq Kadastrı və Monitorinqi Elmi-İstehsalat Mərkəzinin 10 Regional Torpaq Qeydiyyatı Mərkəzi fəaliyyət göstərir.

Nəticədə torpaq mülkiyyətçilərinin daha səmərəli fəaliyyət göstərməsi üçün yaradılan şərait nəticəsində 1995-ci ilə nisbətən 2004-cü ildə kənd təsərrüfatı ilə məşğul olanların sayı təxminən 40 faiz artmışdır. 1995-ci ilə nisbətən 2004-cü ildə kənd təsərrüfatının ümumi məhsulu 3 265,7 milyard manat və ya 91,6 faiz artaraq, 6 832,6 milyard manat olmuşdur ki, bunun da 97 faizi özəl sektorun payına düşür.

Aqrar sahənin texnika ilə təchizatının yaxşılaşdırılması sahəsində də əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Respublika Nazirlər Kabinetinin 31 may 2004-cü il tarixli qərarına əsasən Rusiyanın «Rostselmaş» zavodundan 62 taxıldöyən kombayn, Belarusdan 64 traktor və Türkiyənin «Onallar» firmasından 100-dən çox kənd təsərrüfatı maşını alınmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə aparılan məqsədyönlü siyasət nəticəsində ölkənin kənd təsərrüfatında da son illər mühüm nailiyyətlər əldə olunmaqdadır. Qazanılmış nailiyyətləri əks etdirən statistik göstəricilərin təhlili göstərir ki, 2004-cü ildə və 2005-ci ilin yanvar-noyabr aylarında 94,2 trilyon manatlıq ümumi daxili məhsul istehsal olunmuş əvvəlki analoji müddətlə müqayisədə

38 faiz artmışdır.

Aparılan təhlillər göstərir ki, ölkədə həyata keçirilən uğurlu iqtisadi siyasət, xüsusilə sahibkarlığın inkişafına göstərilən qayğı ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynamaqla yanaşı, regionların iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatının daha da inkişaf etdirilməsinə möhkəm zəmin yaratmış və son illərdə bu sahədə də yüksək nailiyyətlər əldə edilmişdir.

Azərbaycan Respublikasının Prezidentinin 2004-cü il 11 fevral tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə məşğul olan təsərrüfat qurumları üçün geniş və əlverişli imkanlar yaratmışdır.

Təkcə, 2005-ci ildə 2126,4 min ton taxıl istehsal edilmiş, hər hektardan orta hesabla 26,5 sentner məhsul götürülmüşdür.

Kənd təsərrüfatının inkişafında bazar mexanizmi mühüm rol oynamaqdadır. Bunun nəticəsidir ki, son illərdə kənd təsərrüfatının üzümçülük, taxılçılıq, pambıqçılıq, tütünçülük, heyvandarlıq kimi sahələrində xeyli canlanma və inkişaf baş verməkdədir.

2005-ci il dekabrın 5-ə olan məlumata görə, torpaqlardan 192,5 min ton pambıq, 7,1 min ton tütün yarpağı toplanmışdır.

Həmçinin, qeyd olunan müddətdə 1082,3 min ton kartof, 1113, 4 min ton tərəvəz, 363,4 min ton bostan məhsulları, 608,2 min ton meyvə və 77,6 min ton üzüm məhsulu toplanmış, onların istehsalı nəzərə çarpacaq dərəcə artmışdır.

2005-ci ildə respublikanın heyvandarlıq məhsullarının istehsalı da dinamik olaraq artmaqda davam etmişdir. 2005-ci ilin on bir ayında diri çəkidə 240,9 min ton ət, 1150,9 min ton süd, 811, 7 milyon ədəd yumurta və 12,9 min ton yun istehsal edilmişdi.

Beləliklə, aparılmış ümumiləşdirmə göstərir ki, son illərdə (2000-2005-ci illər) kənd təsərrüfatı istehsalı müstəqillik və yeni sosial-iqtisadi şəraitdə fəaliyyət göstərməsi ilə səciyyələnir. Belə ki, iqtisadiyyatın bazar münasibətlərinə keçməsi, kənddə aqrar islahatların həyata keçirilməsi, ictimai təsərrüfatlara məxsus torpaq və əmlakın özəlləşdirilməsi, kənd təsərrüfatı istehsalı sahəsində mərkəzi planlaşdırma sisteminin ləğv edilməsi, məhsul satışının sərbəstləşdirilməsi və s. bu kimi tədbirlər kənd təsərrüfatının sosial və sahə strukturlarına ciddi təsir göstərmişdir. Əhali və kəndli (fermer) təsərrüfatları mülkiyyətə sahib olduqdan sonra əsas kənd təsərrüfatı məhsulları istehsalçılarına çevrilmişlər.

## ƏDƏBİYYAT

1. Əliyev Heydər. Müstəqillik yollarında. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müşahidələr, məruzələr, müraciətlər, fərmanlar, onuncu kitab. May 1997-ci il, 1997, Bakı, 2002.
2. Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Bakı, 1994.
3. Heydər Əliyev. 18-19 iyul 1996-cı il tarixli Azərbaycan Respublikası Nazirlər Kabinetinin respublikada sosial-iqtisadi sahənin inkişafına həsr olunmuş geniş iclasında giriş sözü və yekun nitqi., «Azərbaycan» qəzeti, 18-20 iyul, 1996-ci il.
4. Heydər Əliyev – müstəqil Azərbaycan Respublikasının qurucusudur. Bakı, 2003.
5. Гейдар Алиев. Обеспечив дальнейшее динамичное развитие сельскохозяйственной экономики Азербайджанской ССР. Баку, 1979.

6. Əliyev İ. Heydər Əliyev və Azərbaycanın кənd təsərrüfatı, II кitab, Baкı, 2001.
7. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Baкı, 2004.
8. Zeynalov İ. Azərbaycanın sosial-iqtisadi inкişafı – XX əsrin II yarısında, Baкı, 2004.
9. Зияд Самедзаде. Этапы большого пути. Баку, 2004.
10. Müstəqil Azərbaycan 10 il. Baкı, 2001.
11. Azərbaycan strateji göstəriciləri. 2003, Baкı, 2003.
12. «Azərbaycan» qəzeti, 10 fevral, 2006-cı il.
13. «Xalq qəzeti» 28 deкabr, 2005-ci il.
14. «Xalq qəzeti» 4 noyabr, 2005-ci il.
15. «Xalq qəzeti» 6 may, 2005-ci il.
16. «Azərbaycan» qəzeti, 6 may, 2006-cı il.
17. «Xalq qəzeti» 23 aprel, 2005-ci il.
18. «Xalq qəzeti» 28 mart, 2005-ci il.
19. «Respubliкa» qəzeti, 13 fevral, 2005-ci il.

## ГЕЙДАР АЛИЕВ И ПРЕТВОРЕНИЕ В ЖИЗНЬ АГРАРНЫХ РЕФОРМ В СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Ф.Б.АКПЕРОВА**

### РЕЗЮМЕ

В научной статье изучается роль Гейдара Алиева в подготовке аграрных реформ и претворение их в жизнь в сельском хозяйстве. Здесь изучается значение аграрных реформ, образование новых структур в сельском хозяйстве, а так же обеспечение динамичного развития сельского хозяйства.

Богатый опыт и методы работы влияют на развитие новых структур и воплощение в жизнь аграрных реформ.

В статье дается анализ на основе богатых фактов и материалов о других аспектах, влияющих на развитие сельского хозяйства, а так же создании управлении банко-кредитной политики в сёлах, воплощение в жизнь приватизации.

## GEJDAR ALİEV AND İMPLEMENTATİON OF AGRARİAN REFORMS İN AGRİCULTURE OF THE AZERBAİJAN REPUBLİC

**F.B.AKPEROVA**

### SUMMARY

İn the scientific article is studied Gejdara Aliev is role in preparation of agrarian reforms and their realization agriculture life. Here studied maintenance of agrarian reforms, education of new structures in an agriculture, and so - maintenance of dynamical development of an agriculture.

İn development of new structures in the agriculture, an embodiment in life of agrarian reforms a wide experience influencing it and methods ofworк.

İn the article the is given analysis on the basis of the rich facts and materials about other aspects influencing development of an agriculture, and as creation management banк credit policy in villages, an embodiment in life of privatization.